

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 64 (23.476)

6 may 2020-ci il, çərşənbə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan şəhər buzxanası yenidənqurma və bərpadan sonra istifadəyə verilib

Naxçıvanın qədim tarixi, mədəniyyəti və zəngin mətbəxi turizmin inkişafı üçün geniş imkanlar açır. Bu torpaqda min illər ərzində xalqımızın formalaşdırdığı məişət mədəniyyətinin izləri həm də tarixi abidələrdə – buzxanalarda yaşadılır. Qədimdə insanların buza olan tələbatını ödəyən, ərzaq məhsullarının uzun müddət saxlandığı buzxanalarda bu gün milli mətbəx nümunələrimizin təbliği tarixi və mədəni irsimizin yaşadılmasına hesablanmış tədbirlərdəndir. Ali Məclis Sədrinin tapşırığı ilə Naxçıvan şəhərindəki buzxananın bərpa olunması da bu baxımdan mühüm əhəmiyyət kəsb edir.



Mayın 5-də Naxçıvan şəhər buzxanası bərpa və yenidənqurmadan sonra istifadəyə verilmiş, abidədə "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi üçün iş şəraiti yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Hicran Rüstəmov inşaatçılar adından minnətdarlıq edərək demişdir ki, muxtar respublikada aparılan tikinti-quraşdırma və abadlıq işləri nəticəsində qədim diyarımız günü-gündən inkişaf edir. Tikinti işləri zamanı keyfiyyət amili diqqətdə saxlanılır, yeni binaların inşası ilə yanaşı, tarixi abidələr də bərpa olunur. Naxçıvan şəhər buzxanasında bərpa işlərinin görülməsi də bu tədbirlərin davamıdır.





"Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin əməkdaşı Fəridə Əsədova çıxış edərək demişdir ki, muxtar respublikada aparılan genişmiqyaslı quruculuq işləri sırasında tarixi-memarlıq abidələrinin bərpası xüsusi yer tutur. Buzxana abidəsinin bərpa olunaraq Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin balansına verilməsi göstərilən qayğının əyani ifadəsidir. Bu gündən etibarən "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi burada fəaliyyət göstərəcəkdir. Yaradılan şərait Naxçıvan mətbəxinin təbliğinə geniş imkanlar açacaq, yerli və xarici turistlərin böyük marağına səbəb olacaqdır. Fəridə Əsədova tarixi-mədəni irsimizin və dəyərlərimizin yaşadılması sahəsində görülən işlərə görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbir iştirakçılarını ölkə əhəmiyyətli tarixi abidəmiz olan Naxçıvan şəhər buzxanasının bərpa və yenidənqurmadan sonra istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: Abidələri yaşatmaq xalqın tarixini, mədəniyyətini, dəyərlərini yaşatmaq deməkdir. Bu gün tariximiz təkcə kitablarda deyil, eyni zamanda abidələrdə yaşayır. Xalqımızın neçə əsr bundan əvvəlki təfəkkürünün məhsulu olan abidələri qorumaq, bərpa edərək yaşatmaq, gələcək nəsillərdə tariximiz və qədim mədəniyyətimiz haqqında təsəvvürlər formalaşdırır.

Ali Məclisin Sədri demişdir: Buzxanalar insan təfəkkürünün məhsuludur. Texnologiyanın olmadığı bir dövrdə xalqımızın yaratdığı buzxanalar insanları isti yay günlərində buzla təmin etmişdir. Bu da Azərbaycan xalqının tarixən nə qədər böyük inkişaf yolu keçdiyini göstərir. Çünki tarixi abidələr hər bir xalqın uzun illər ərzində formalaşdırdığı mədəniyyətin nəticəsində yaranmışdır. Xalqımızın keçdiyi yol və malik olduğu mədəniyyət neçə əsr bundan əvvəl tarixi abidələrin, o cümlədən buzxanaların yaranmasına səbəb olmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin tövsiyə və tapşırıqlarına əsasən ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikada da abidələr bərpa olunur. Muxtar respublikada bu işə tarixi abidələrin pasportlaşdırılması ilə başlanılmışdır. Daha sonra abidələr tədqiq olunaraq öyrənilmiş, hansı kateqoriyaya aid olduqları müəyyənləşdirilmiş və bərpa edilmişdir. Belə abidələrdən biri də Naxçıvan şəhərində yerləşən və XII-XIV əsrlərə aid olan buzxanadır.



Ali Məclisin Sədri demişdir: Buzxana abidəsinin tarixi görkəmi qorunub saxlanılmaqla bərpa olunması ona ikinci həyat vermişdir. Abidədə xalqımızın milli dəyərlərinin bir hissəsi olan kulinariya mədəniyyəti yaşadılacaq və təbliğ olunacaqdır. Bu gün Naxçıvan Dövlət Universitetində müvafiq ixtisas üzrə kadr hazırlığının aparılması və həmin ixtisasın hamiliyə götürülməsi, eləcə də gənclərimizə kulinariya mədəniyyətimizin öyrədilməsi qarşıda duran əsas vəzifələrdəndir. Ona görə də buzxanada Naxçıvan Turizm Departamentinin "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin fəaliyyəti üçün şərait yaradılmış, yeni iş yerləri açılmışdır. Burada milli mətbəx nümunələrimiz hazırlanaraq təbliğ olunacaq, həm tariximiz, həm də dəyərlərimiz yaşadılacaqdır. Abidənin qorunması və yaradılan şəraitdən lazımi səviyyədə istifadə olunması Turizm Departamentinin üzərinə düşən vəzifədir. Buradan yalnız ictimai iaşə obyekti kimi istifadə olunmamalı, eyni zamanda televiziya verilişləri vasitəsilə milli mətbəx nümunələrinin hazırlanma qaydaları əyani formada nümayiş olunmalı, internet resurslarından istifadə etməklə təbliğat işi aparılmalıdır.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetiriləcəyinə əminliyini bildirmiş, abidənin bərpasında əməyi olanlara təşəkkür etmiş, yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, Naxçıvan şəhər buzxanasının plan quruluşu düzbucaqlı formadadır. Hazırkı vəziyyətdə hündürlüyü 9,6, divarlarının qalınlığı 1 metr olan abidə memarlıq quruluşu saxlanılmaqla bərpa olunmuşdur. Abidənin divarları izolyasiya edilmiş, bina və mövcud yardımçı otaqlar əsaslı təmir olunmuş, mətbəx və qazanxana tikilmişdir. Buzxananın tarixi görkəminə uyğun mebel və avadanlıqlar qoyulmuş, istilik sistemi quraşdırılmışdır. Burada Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin fəaliyyəti təmin olunacaq, sakinlərə, eləcə də turistlərə iaşə xidməti göstəriləcəkdir.

Abidənin həyətində də abadlıq işləri aparılmış, buzxanaya gedən yol genişləndirilərək asfalt örtüyü salınmış, işıq dirəkləri quraşdırılmışdır.

Ali Məclisin Sədri abidənin qorunması və milli mətbəx nümunələrimizin təbliği ilə bağlı tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ərzaq təhlükəsizliyinin təmin olunmasında baytarlıq xidmətinin rolu mühümdür



*Bu gün dünyada hamılıqla qəbul olunan fakt ondan ibarətdir ki, baytarlıq xidməti çoxşaxəli, iqtisadi, istehsal və biotəhlükəsizlik sistemidir. Çünki əhalinin ərzaq təminatının, təhlükəsizliyinin çox vacib və mühüm məsələləri məhz burada öz həllini tapır. Sağlam, keyfiyyətli ət və süd məhsulları ilə təminatda mühüm əhəmiyyətə malik olan baytarlıq xidmətinin təşkilinə muxtar respublikamızda da xüsusi diqqət yetirilir. Bunu sürətlə inkişaf edən bölgələrimizdən olan Babək rayonunda son illər ərzində bu sahədə həyata keçirilən və artıq öz bəhrələrini verən kompleks tədbirlər də bir daha təsdiq edir.*

Bu istiqamətdə görülən işlərlə bağlı ətraflı məlumat almaq üçün Babək Rayon Baytarlıq İdarəsinin rəisi, Naxçıvan Muxtar Respublikasının Əməkdar kənd təsərrüfatı işçisi Cəlal Həsənovla həmsöhbət olduq. O qeyd etdi ki, bu gün dövlət qayğısı sayəsində Dövlət Baytarlıq Xidmətinin bütün yerli qurumları kimi, Babək Rayon Baytarlıq İdarəsi də güclü maddi-texniki bazaya malikdir. Görülən tədbirlər çərçivəsində Babək qəsəbəsində Baytarlıq İdarəsi üçün yeni inzibati binanın inşa olunaraq istifadəyə verilməsi əməkdaşların iş şəraitini daha da yaxşılaşdırıb. Həmçinin müxtəlif müayinə analizləri aparmaq üçün müasir avadanlıqların quraşdırıldığı laboratoriyalar da fəaliyyət göstərir ki, bu da xidmətin düzgün və səmərəli təşkilində mühüm rol oynayır. Eyni zamanda yaşayış məntəqələrindəki müasir kənd mərkəzlərində baytar həkimlər üçün ayrıca iş otaqları ayrılıb, lazımi dərman preparatları ilə təmin olunub.

Ölkə başçısı cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il 22 fevral tarixli Sərəncamına əsasən Süni Mayalanma Mərkəzinin tikintisinə 3 milyon manat vəsait ayrılıb və bu istiqamətdə həyata keçirilən işlər yaxın gələcəkdə Naxçıvanda heyvandarlığın keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına imkan verəcək. Beləliklə də müvafiq məntəqələrdə görülən işlər vahid mərkəzdən mütəşəkkil şəkildə idarə olunmaqla, müsbət nəticələrə yol açacaq. Bununla heyvanların cins tərkibinin yaxşılaşdırılması prosesi daha da sürətləndiriləcək, bu da süd və ət istehsalının bir neçə dəfə artmasına imkan verəcək.

Müsahibim bildirdi ki, muxtar respublikamızın zəngin təbiəti, diyarımızın yerləşdiyi coğrafi mövqe heyvanların, quşların, arı ailələrinin sayının artırılmasına geniş imkanlar açır. Baytarlıq xidmətinin maddi-texniki bazasının daha da möhkəmləndirilməsi isə dövlətimizin daim diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il fevral ayının 17-də "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında imzaladığı Sərəncam da bu məsələnin həllinə istiqamətlənmiş mühüm dövlət sənədidir. Sərəncamda baytarlıq sahəsində dövlət nəzarətinin tənzimlənməsi, dövlət nəzarəti və əlaqələndirmənin həyata keçirilməsi, muxtar respublikada heyvandarlıq məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi baxımından qeydiyyata alınması kimi zəruri məsələlər əksini tapıb. Bu dövlət sənədi həmin sahənin mütəxəssisləri olan biz baytarların qarşısına yeni heyvan, quş və balıq cinslərinin yetişdirilməsi, yerli arı genofondunun mühafizəsi, onlardan yüksək keyfiyyətli məhsul götürülməsi üçün zoobaytar qaydalarına əməl edilməsi işlərinin daha da təkmilləşdirilməsi kimi ümdə vəzifələr qoyur. Onu da qeyd edim ki, dövlət tərəfindən pulsuz verilən vaksinlər, preparatlar, aparılan peyvəndləmə tədbirləri nəticəsində rayon ərazisindəki heyvanlar arasında heç bir təhlükəli xəstəliyə rast gəlinmir. Ötən il ərzində bruselyoz xəstəliyinin müayinəsi məqsədilə 6490 baş iribuynuzlu mal-qaradan qan nümunələri götürülüb və heç bir infeksion xəstəlik aşkarlanmayıb. Qarayara xəstəliyinə görə isə 15 min 28 baş iribuynuzlu, 614 baş təkdırnaqlı heyvanda profilaktik müayinələr aparılıb. 2020-ci il ərzində də Babək Rayon Baytarlıq İdarəsi tərəfindən Dövlət Baytarlıq Xidmətinin əməkdaşları ilə birgə peyvəndləmə tədbirlərinin aparılması, infeksion xəstəliklərə qarşı vaksinlər vurulması nəzərdə tutulub.

Cəlal həkim dedi ki, dövlətimiz tərəfindən peşəkar kadr hazırlığı da daim diqqətdə saxlanılır. Belə ki, son illərdə Naxçıvan Dövlət Universitetində Baytarlıq təbabəti kafedrasının yaradılması, kafedra üçün yeni binanın istifadəyə verilməsi və lazımi vəsaitlərlə təmin olunması bu sahədə tədrisin keyfiyyətinə böyük mənada təsir göstərib. Burada yüksəkixtisaslı baytar kadrlar hazırlanır, onlar qardaş Türkiyə Respublikasının universitetləri ilə əməkdaşlıq edərək kliniki təcrübə və dərslərdə iştirak edirlər. Bundan başqa, Naxçıvan Dövlət Texniki Kollecində də Baytarlıq təbabəti ixtisası fəaliyyət göstərir. Tələbələr tez-tez rayonlardakı iri fermer təsərrüfatlarında təcrübə keçirlər. Bu istiqamətdə görülən tədbirlər tələbələrin peşəkarlığını daha da artırmaqla baytarlıq sahəsinin gələcək inkişafını təmin edir.

Həmsöhbətim onu da bildirdi ki, heyvandarlığın inkişafında mühüm faktorlardan biri də süni mayalanma tədbirlərinin aparılmasıdır. Müqayisə üçün, demək olar ki, əgər yerli inək sortları kəsim zamanı 100-120 kiloqram ət verirsə, süni mayalanmadan doğulanlardan 250-300 kiloqrama qədər ət, eləcə də 15-20 litrə qədər süd almaq mümkündür. Ölkə başçısı cənab İlham Əliyevin 2015-ci il 19 avqust tarixli Sərəncamı ilə süni mayalanmadan alınan hər buzova görə fermerlərə 100 manat yardım da müəyyən edilib ki, bu da təsərrüfat sahiblərinin süni mayalanmaya olan marağını artırıb. Rayonda da bu sahəyə xüsusi diqqət yetirilir. Əldə olunan statistik göstəricilər də müsbət fikirlər söyləməyə əsas verir. Belə ki, ötən ilin ilk ayı ərzində süni mayalanmadan 171 baş sağlam buzov doğulmuşdusa, bu ilin müvafiq dövründə bu rəqəm 182 olub.

Son illərdə qəbul olunan dövlət proqramları, imzalanan sənədlər Babək rayonunda arıçılığın inkişafına da müsbət təsir göstərib. Bu sahədə baytarlıq tədbirlərinin görülməsi də diqqətdə saxlanılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabrda imzaladığı Sərəncamla təsdiq olunan "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" ənənəvi arı cinslərinin yetişdirilməsinə, arı ailələrindən yüksək məhsul götürülməsinə, xəstəliklərə qarşı vaxtında mübarizə aparılmasına geniş şərait yaradır. Rayon Baytarlıq İdarəsinin əməkdaşları da vətəndaşların müraciətləri əsasında tez-tez təsərrüfatlarda olur, qabaqlayıcı tədbirlərin görülməsi üçün müvafiq maarifləndirici məsləhətlər verirlər. Həmçinin dövlətimizin maddi dəstəyi də arıçıların bu sahənin inkişafında səy göstərmələrinə yol açır. Belə ki, ötən il ərzində dövlət tərəfindən, ümumilikdə, 8100 arı ailəsinə pulsuz müxtəlif dərman preparatları verilib. Bundan başqa, arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə görə 10 manat məbləğində subsidiya da ödənilir ki, bu da arıçıların marağını daha da artırır.

Apardığımız söhbətdən də məlum oldu ki, Babək Rayon Baytarlıq İdarəsi öz işini günün tələbləri çərçivəsində qurur, əhalini sağlam, keyfiyyətli ət və süd məhsulları ilə təmin etmək üçün heyvandarlıqda, quşçuluqda baş verə biləcək xəstəliklərin qarşısını almaq məqsədilə kompleks tədbirlər həyata keçirir. Əminliklə qeyd etmək olar ki, idarə əməkdaşları yaradılan şəraitdən istifadə edərək baytarlıq xidmətinin keyfiyyətini daha da yüksəldəcək, muxtar respublikamızda ərzaq təhlükəsizliyinin davamlı şəkildə təmin olunmasına öz töhfələrini verəcəklər.

✍ **Pərviz HACILI**

*Artıq may ayının ilk günlərini yaşayırıq. Qışın soyuğu öz yerini baharın günəşli günlərinə verib. Sanki Günəş öz isti nəfəsi ilə hər bir kənd zəhmətkeşini fəal olmağa, əkib-becərmək əzmini artırmağa səsləyir. Kəndli də yaxşı bilir ki, torpaqda işləmək, onu həvəslə əkib-becərmək, gəlir əldə etmək firavan yaşamaq deməkdir. Əgər torpağını əkmirsənsə, öz ailənə lazım olan məhsulları yetişdirmirsənsə, onda xoş günləri arzulamaq da əbəsdir. Gərək zəhmətə qatlaşıb, əkib-becərəsən ki, faydasını da görəsən.*

## Çiyələk – yurdumuzun al mirvarisi



Hər mövsüm özünün müxtəlif fəaliyyət sahələri ilə fərqləndiyi kimi, qida rasionu ilə də fərqlənir. İlin müxtəlif dövrlərində mövsümi qidalar qəbul etmək sağlam yaşamağın ilkin şərtlərindəndir. Elə pandemiya ilə mübarizədə də immun sistemini qorumaq ən vacib amillərdən biridir. May ayı da müxtəlif bitkilərin toplandığı, meyvə-tərəvəzlərin çiçək dövrünü yaşadığı bir zamandır. Bu dövrdə, əsasən, C vitamini ilə zəngin olan çiyələk də artıq çiçək açmağa başlayıb.

Biz də yurdumuzun bu şəfalı



meyvəsini əkib-becərənlərlə görüşmək üçün üz tutduq Şahbuz rayonunun ucqar yaşayış məntəqələrindən biri olan Keçili kəndinə. Bu sahə ilə məşğul olanlardan biri Şakir Məmmədovdur. O bizi elə öz həyətyanı sahəsində qarşıladı. Artıq 10 ildir, çiyələk əkini ilə məşğul olan həmsöhbətim əvvəlcə torpağın səxavətindən danışdı. Onun insan həyatında əvəzsiz rolunu xüsusi vurğuladı. Qeyd etdi ki, ömrü-günü açıq havada, alaçıqda keçən, illərin izlərini nurlu çöhrələrindəki qırışlarda yaşadan ağbirçəklərimiz, ağsaqqallarımız, beləcə, yaranışdan torpaqla yaxın təmasda olublar. Alın tərini torpağa qarışdıran, əllərinin qabarını torpaqla ovxalayan, onu əzən, əzizləyənlər torpağın barı ilə övladlarını doyurub, dolandırıblar. Sağlamlığın da, uzunömürlülüyün də əlacını işdə, zəhmətdə, torpaqla ünsiyyətdə görüblər. "İş insanın cövhəridir", – deyib, el adət-ənənələrimizi qoruyub yaşadan da elə əliqabarlı babalarımız, nənələrimiz olub.

Çiyələyin bu kənddə necə yetişdirilməsi ilə bağlı Şakir dayı bildirdi ki, kənd sakinləri həyətyanı sahələrində bu bitkinin becərilməsinə xüsusi əhəmiyyət verirlər. Öyrəndik ki, çiyələyin yaxşı məhsul verməsi üçün ona xüsusi diqqət göstərmək lazımdır. Çiyələk çoxyönlü bitkidir, o, yaxşı suvarıla bilən torpağa əkilməlidir. Əvvəllər kartof, pomidor kimi bitkilər əkilən torpağa çiyələk əkilməsi məsləhət deyil. Çiyələk torpağa cərgə şəklində əkilməlidir. Bitkinin suvarılmasına da xüsusi fikir verilməlidir. Hava şəraitindən asılı olaraq kolları vaxtaşırı su ilə təmin etmək lazımdır. Məhsuldarlığı artırmaq üçün payızın əvvəlində hər kvadratmetrə 50 qram miqdarında gübrə vermək olar. Alaq otlarından, bitkini qurumuş, xəstəlik tutmuş yarpaqlarından təmizlədikdə daha çox məhsul götürmək olar.

Çiyələyi məhsuldarlığa təsir göstərən xəstəliklərdən, həşəratlardan qorumaq da vacibdir. Belə ki, kollarının tez xarab olması, quşlar, həşəratlar ona çox zərər verir. Günəş işığı lazımlı olsa da, o, nisbətən sərin yerlərdə əkilməli, torpağı nəm saxlanmalıdır. Belə olan halda yarpaqları daha təravətli, sağlam qalacaq. Müsahibim bildirdi ki, ötən il bu aqrotexniki qaydalara əməl etməklə məhsuldarlığa nail olub, əkdiyi sahədən bir ton çiyələk toplayıb, yaxşı qazanc əldə edib. Elə buna görə də bu il də 2 put sahədə yenidən çiyələk əkini həyata keçirib.

Kənd sakini ilə söhbətimizdən sonra mütəxəssislərlə də görüşdük. Onlar bizə çiyələyin faydaları haqqında məlumat verdilər. Öyrəndik ki, qida rasionumuzda çiyələkdən vaxtaşırı istifadə olunması xolesterolu aşağı salır, damar tutulmasının qarşısını alır, həzm sistemini nizamlayır. Qanı təmizləməklə yanaşı, diş ətini, immuniteti və yaddaşı gücləndirir, dəriyə gözəllik verir.

Çox yaxşı bir antioksidant olan çiyələk sakitləşdirici təsiri ilə təzyiqi nizamlayır və stresi azaldır, hərarəti salır. Revmatizm və qaraciyər xəstəliklərinin profilaktikasında effektiv təsir göstərir. Şəkər xəstəliyinin aradan qaldırılmasına köməkçi olur. Çiyələk həm də xərçəngə qarşı təsirli bir qidadır. Sümüklərin güclənməsi üçün lazımlı kalium, maqnezium və digər mineralları ehtiva edir. Fol turşusu, B5 və B6 vitaminləri ilə zəngin olduğu üçün saçların tökülməsinin qarşısını alır.

Bu yaz yağıntının normaya uyğun olması, havaların əlverişli keçməsi torpağa bağlı insanların üzünü güldürür. Bu isə o deməkdir ki, bərəkətli Naxçıvan torpağında bu il də digər nemətlər kimi, süfrələrimizin bəzəyi olan çiyələk də bol olacaq.

✍ **Telli MƏMMƏDOVA**

## Tütün əkininə başlanılıb



Tütünçülük muxtar respublikada inkişaf etdirilən sahələrdəndir. Son illər bu məqsədlə lazımi tədbirlər görülüb, Kəngərli rayonunun ərazisində "Cahan Tabak" Beynəlxalq Məhdud Məsuliyyətli Cəmiyyətinin Tütün Yetişdirmə Mərkəzi yaradılıb. Ötən il mərkəz tərəfindən muxtar respublikada 50 hektar sahədə tütün əkini aparılıb. Sahələrdən 96 ton quru tütün əldə olunub.

Tütün Yetişdirmə Mərkəzinin icraçı direktoru Nurəddin Qəhrəmanovun verdiyi məlumata görə, bir neçə gündür, tütün əkininə start verilib. Belə ki, istixana şəraitində yetişdirilən tütün şitillərinin əraziyə köçürülməsinə başlanılıb. Artıq Kəngərli rayonunun Təzəkənd və Xıncab kəndləri ərazisində 5 hektar sahədə "İzmir" və "Virciniya" sortları olan tütün şitilləri əkilib.

Qeyd edək ki, 2,6 hektar ərazini əhatə edən Tütün Yetişdirmə Mərkəzində şitil yetişdirmək üçün 2200 kvadratmetr sahəsi olan 5 istixana, 10 min kvadratmetrdən çox sahədə tütün qurutma yeri yaradılıb. Bununla yanaşı, tütün əkilməsi üçün əvvəlcədən torpaq hazırlığı işləri görülüb, əkin prosesinə 25 kənd sakini də cəlb olunub. Hələlik, muxtar respublikada 50 hektar sahədə tütün əkininin aparılması üçün torpaq mülkiyyətçiləri ilə müqavilələr bağlanılıb, ancaq bu rəqəmin artacağı da istisna deyil.

✍ **Səbuhi HƏSƏNOV**

Muxtar respublikamızda gənc ailələrin sosial müdafiəsinin gücləndirilməsi, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində hər il ardıcıl

## Gənc ailələr üçün yaşayış binası inşa olunur

tədbirlər həyata keçirilir. Təqdirəlayiq haldır ki, bu istiqamətdə görülən işlər bütün bölgələri əhatə edir. Ordubad rayonunda da bu tədbirlər uğurla davam etdirilir. Belə ki, hazırda Ordubad şəhərinin mərkəzində – Heydər Əliyev prospektində gənc ailələr üçün nəzərdə tutulmuş zirzəmi ilə birlikdə 8 mərtəbəli yaşayış binasında inşaat işləri həyata keçirilir.

28 mənzildən ibarət binanın daxili və fasad divarlarının suvanması başa çatdırılıb, fasada mərmər üzlük çəkilməsi işləri milli memarlıq ənənələri gözlənilməklə yerinə yetirilir. Binanın pəncərələri salınıb, hazırda bu inşaat obyektinin həyətində abadlıq işləri görülür.

Qeyd edək ki, yaşayış binasının zir-



zəmisində xidmət sahələri də yaradılacaq, bərbərxana, qadın gözəllik salonu, dərzi, ərzaq və sənaye malları mağazaları rayon sakinlərinə xidmət göstərəcək.

**Abbas SEYİD**

*2020-ci il "Könüllülər ili"dir*

# Könlünün səsinə qulaq as, yetər...

**KÖNÜLLÜLÜK...** *Bir neçə hərfdən yaranan, ilk baxışdan çox sadə görünən bu söz bizə nələr danışır? Bir qədər düşünək...*

Nənə-babalarımızın nağıl gecələrinin şirin-şəkər söz-söhbətilə, oxuduqlarımızla, eşitdiklərimizlə yoldaş olub yola çıxaq, bu sözün mənasına, mahiyyətinə vara-vara qədim tariximizi vərəqləyək həmin yolçuluqda. Könüllülərlə rastlaşacağıq bu yolda. Əcdadlarımızın ayaq səslərinə qulaq verdikcə, təxəyyül, təfəkkür dünyalarına səyahət etdikcə, dünənimizdə baş verənləri, bu günümüzün reallıqlarını, müstəqilliyimizi, inkişafı, tərəqqini hər incə detalınadək diqqətlə izlədikcə könüllərdən gələn səsləri də eşidəcəyik. İşıqlı sabahlara aparan yolda qarşımıza çıxan maneələri aşdığımız, çıraq işığına məcbur qaldığımız, qəlbimizdə közərən ümid işığından güc aldığımız, nəfəsimizlə əlimizi isitməyə çalışdığımız qaranlıq gecələrdə, gecə rəngli gündüzlərdə çəkdiyimiz əziyyətlərlə üz-üzə dayanaq. Bu yolçuluqda olanların-keçənlərin məğzinə vara-vara könüllülüyün, könüllülərin hər əsrdən boylandığını görəcəyik... Gördükcə də könüllülük bizim xalqın qanındaymış, canındaymış, genetik yaddaşındaymış ki, deyəcəyik...

Bəşəriyyətin ikinci yaradılışı sayılan Nuh tufanı dövrünə səyahət edək, o uğultunun sonunu, sükutunu dinləyək, Nuhun Nəqşicahana ayaq basdığı, ona qəlbdən bağlanaraq ömrünü-gününü bu torpağa həsr etməsində, dərdlərin dərmanı olan, el-el, oba-oba gəzən, dadımız-tamımız olan duzun mənbəyində – Duzdağ şaxtasında çalışmasındadır könüllülük. Könüllülük Dədəm Qorqudun övladlarını birliyə-bərabərliyə səsləyən nəsihət dolu sözündədir, doğma yurd-yuvasını qorumaq üçün əllərinə qılınc-qalxan alaraq düşmən üzərinə yeriyən mərd oğuz igidlərinin nərəsində, namərdi lərzəyə salan məğrur baxan gözündədir. "Qazan xanın evinin yağmalanması boyu"ndan tanıdığımız Qaraca çobanın düşmənlərlə təkbaşına son anadək mübarizə aparmasında, Qazan xana kömək məqsədilə var qüvvəsi ilə ağacı kökündən qoparmasındadır, bunun kimi neçə-neçə əfsanələrimizdə, rəvayətlərimizdə, nağıllarımızda, folklorumuzdadır. Çənlibeldə at oynadan Koroğlunun ətrafına yığılan "dəli"lərin hayqırtısında, Nigar, Telli kimi iffətli xanımların kişilərlə bərabər at sürərək, qılınc oynadaraq düşmənə meydan oxumaq istəyində, 816-837-ci illər arasında ərəb işğalçılarının 6 ordusunu darmadağın edən Babəkin azadlıq şüarında, qolu kəsiləndə ölümün gözünə dik baxan igidimin üzünü al-qırmızı qanına boyayaraq "rəngim sarala bilər, istəmirəm düşmən məni saralmış görsün" deyə söylədiyi ibrətamiz sözlərdədir könüllülük... Atabəy Şəmsəddin Eldənizin, Məhəmməd Cahan Pəhləvanın, Qara Yusifin, Uzun Həsənin, Şah İsmayıl Xətainin torpaqlarımızı birləşdirmək əzmində, dünənimizə işıq saçan Əcəmi memarlıq nümunələrindən – Möminə xatının, Yusif Küseyr oğlunun bədii təxəyyülə hopan hər naxışında, Möminə xatın türbəsinin baştağında kufi xətti ilə yazılan "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar" sözlərinin məğzindədir. Əmir Teymura təslim olmayan, 14 illik şərəf, ləyaqət dastanı yazan Əlincəqalanın hər addımına ləpir salan ulu babalarımın əl-ayaq izlərində, bu qəhrəmanlıq salnaməsinin mirasına hörmət hissində, min bir əziyyət bahasına da olsa, yüksək səviyyədə bərpa edilərək yaşadılmasındadır könüllülük. Qərbi Azərbaycanın böyük bir hissəsini əhatə edən Naxçıvan xanlığını yaradan Kəngərlilər sülaləsindən olan Naxçıvanskilərin insanlara ərməğan etdikləri yaşam qaynaqları sayılan çeşmələrdə, hamamlarda, körpülərdədir...



Maarifpərvərlik nişanəsi olan "Əkinçi" qəzetinin insanları doğruluğa, düzgünlüyə səsləyən hər cümləsində boy atıb pöhrələyən könüllülük Ana dilinin müqəddəsliyini aşılayan, cahilliyi tənqid edən Mirzə Cəlil dühasında pərvəriş tapır, neçə-neçə şair, yazıçılarımızın əsərlərində yaşayır, ilham qaynağına çevrilir. Könüllülük Naxçıvanın könüllülərdən ibarət taborlarının türk qoşunları ilə birgə erməni daşnaklarını darmadağın edərək Araz-Türk Respublikasının yaradılmasında, muxtariyyət yolunda atılan addımlarda, Nəriman Nərimanovun, Behbud ağa Şahtaxtinskinin mübariz, dönməz mövqelərində, mütərəqqi fəaliyyətlərindədir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə qısa zamanda böyük işlərin görülməsində, qəbul edilən bayrağımızın, gerbimizin hər bir elementində, himnimizin hər bir sətrindədir. Xalqımızın qəhrəmanlıq səhifələrindən olan İkinci Dünya müharibəsi illərində vətənpərvər oğullarımızın göstərdikləri şücaətlərdə, cəbhədən yazdıqları məktublarda, torpaq, el uğrunda vuruşan igidlər üçün gündüzlü tarlalarda çalışıb gecələri ilmə-ilmə corab, şərf toxuyan anaların zəhmətdən qabar olmuş əllərində, qalib gəlmək naminə, cəbhə üçün silah-sursat alınsın deyə nişan üzüklərini belə, əsirgəməyən anaların, bacıların nikbin baxışlarında, inam dolu qəlblərindədir...

Vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyi sayılan ümummilli lider Heydər Əliyevin 1969-cu ildən ölkəmizi müstəqil, xoşbəxt, firavan gələcəyə aparan müqəddəs amalında, gördüyü misilsiz işlərdədir könüllülük. Xalqımızın mübarizlik simvoluna çevrilən 20 Yanvar və Xocalı faciələrində ulu öndərin ermənilərin millətimizin başına gətirdiyi müsibətlərə, SSRİ kimi nəhəng imperiyaya qarşı göstərdiyi yenilməz qətiyyətində, dönməz iradəsində nur saçıbdır könüllülük. Azadlıq meydanında həmrəylik nümayiş etdirən minlərlə insanın qəlbindən qopan "Azadlıq!" hayqırtısının göylərə ucalıb müstəqillik toxumu tək yerə səpildiyi an görkəmli dövlət xadimi Heydər Əliyevin sovet ideologiyasının buxovlarına baxmayaraq, yüksək vəzifəsindən imtina edərək canı bahasına da olsa, öz doğma Vətəninə qayıdaraq cücərməkdə olan müstəqilliyi qorumasında, millətin isə öz xilaskarına rəğbətindədir könüllülük. Bütün ömrünü Azərbaycanın tərəqqisinə sərf edən bu müdrik şəxsiyyətin söylədiyi nitqlərində, ***"Mənim həyatım xalqıma məxsusdur və bundan sonra ömrümün qalan hissəsini də xalq üçün əsirgəməyəcəyəm. Həyatımın mənasını ancaq xalqa xidmət etməkdə görürəm. Mənim üçün ən böyük mükafat bundan sonra da xalqın etimadını doğrultmaqdan ibarətdir"*** fəlsəfəsindədir.

Könüllülük, qəhrəmanlıq salnaməmiz sayılan Sədərək döyüşlərində Naxçıvanın hər bir bölgəsindən buraya axışan yurdsevər insanların son damla qanlarınadək vuruşmasında, "Təki Vətən yaşasın!" şüarı ilə canlarından keçməsində, bir qarnı ac, bir qarnı tox yerli əhalinin güllələbaran altında səngərdəki oğullara ərzaq daşımasında, top mərmilərindən dəlik-deşik olsa da, körpə fidanlara sabaha ümid, qələbə əzmi, elm ziyası bəxş etməyindən qalmayan Sədərək məktəbində çalışan fədakar müəllimlərin əməyindədir. Könüllülük dahi siyasətçinin ətrafında sıx birləşməsində, iki qardaşı ayrı salan "sərhəd" dirəklərini qışın şaxta, çovğununa rəğmən tar-mar edən insanların həsrət alovlu əllərində, inam dolu qəlblərindədir, ümid körpüsü olan Sədərək-Dilucunu salan ürəklərdə, diləklərdədir. Sədərək-Dilucu körpüsü həm də bir-birinə həsrət qalan iki qardaşın vüsal yeri, bütövləşən könül bağıdır.



Könüllülük görkəmli dövlət xadimi Heydər Əliyevi Naxçıvanda Ali Məclisin Sədri seçilməyə səsləyən minlərlə naxçıvanlının ürək döyüntüsündə, dahi siyasətçinin xalqının səsinə səs verərək onu nicat yoluna çıxarmasındadır. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ulu öndərin 10 il ərzində yüzilliklərə bərabər uzaqgörən işlər həyata keçirərək Azərbaycan adlı müstəqil dövləti miras qoymasında, siyasi irs yaratmasındadır.

30 il bundan öncə naxçıvanlıların könlündə arzulanan "firavan günlər, xoşbəxt gələcək" nəğməsinin sədası gündən-günə daha da yüksəlir. Açılan sabahlar, doğan Günəş könülləri fərəh hissi ilə doldurur, yeni-yeni uğurlara vəsilə olur. Artıq gündəlik həyat ritminə çevrilən könüllülük şəhər, qəsəbə, kəndlərimizin abadlaşan, gözəlləşən simasından boylanır, hər iməcilikdə minlərlə ağac əkən, ümumi evimiz sayılan doğma yurdumuzun səliqə-sahmanına xüsusi həssaslıqla yanaşan insanların əməli işində təcəlla edir. Könüllülük "hərəmiz bir ağac əkək", – deyib "Gənclər bağı" salan, "Kitablar tozlanmasın" şüarı ilə mütaliəyə maraq oyadan, festivallarda, bayramlarda, əlamətdar günlərdə milliliyimizi, adət-ənənəmizi yaşadan, təbliğ edən, startaplar yaradan gəncliyin vətənpərvərlik hissində, innovativ düşüncəsində, ruhunda pərvazlanır. Gecə-gündüz ilmə-ilmə yun şərf, corab toxuyaraq səngərdə Vətənimizin keşiyini çəkən oğullara hədiyyə edən sağlamlıq imkanları məhdud şəxslərin, bayramlarda öz əlləri ilə əkib-becərdikləri məhsullardan əsgərlərə sovqatlar aparan insanların xeyirxah təşəbbüsündə, xalq-ordu birliyinin təməlindədir. Soykökümüzü, milli-mənəvi dəyərlərimizi qoruyan və yaşadan muzeylərə yüzlərlə dəyərli eksponatlar hədiyyə edən sakinlərin keçmişimizə verdiyi dəyərdə, veteranlara, ahıllara bəslənilən hörmət, ehtiram hissindədir. Lələtəpədə, Günnütdə, Qızılqayada üçrəngli bayrağımızı dalğalandıran dağ əzəmətli mərd oğullarımızın işğal olunmuş digər torpaqlarımızın azad olunması eşqi ilə döyünən ürəklərində, tətikdəki barmaqlarında, zəfər nəğməsini söyləməyə amadə olan dillərindədir.

***Ağır sınaqlarla üz-üzə dayandığımız 2020-ci ildədir könüllülük. Dünyanın hegemon dövlətlərinin belə, əlində aciz qaldığı koronavirus pandemiyasına qarşı xalqımızın, dövlətimizin birlik, bərabərlik göstərməsində, ölkə rəhbərinin "Biz birlikdə güclüyük!" şüarına səs verməsində, dövlət adamlarının, ayrı-ayrı sahələrdə çalışanların, sahibkarların, sadə insanların Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələr etməsində, ölkənin hər yerindən eşidilən həmrəylik dolu videolarda, alqış sədalarında, kimsəsizlərə, ahıllara, sosial qayğıya ehtiyacı olanlara göstərilən köməkdə, yuxusuz gecələr, yorğun gündüzlər keçirən tibb işçilərinin zəhmət tərinin selə döndüyü şəfalı əllərindədir. Atdığı mütərəqqi addımlarla, gördüyü misilsiz işlərlə xalqımızı bu bəladan xilas etməyə çalışan ölkə Prezidenti cənab İlham Əliyevə hər kəsin qəlbindən süzülən kəlmələrdə, ünvanlanan etimad, inam, rəğbət dolu məktublardadır könüllülük... Səndədir, məndədir, bizdədir, hər birimizdədir... Hər şeyin könlümüzcə olması diləyi ilə...***

*Xeyirxah amala sahibsən əgər,*
*Gördüyün hər işdə vardır bir dəyər,*
*Gözünü tox tutub dünya malından,*
*Könlünün səsinə qulaq as, yetər...*

**Nail ƏSGƏROV**

*Məqalə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun elan etdiyi yaradıcılıq müsabiqəsinə təqdim edilir.*

## Təhsil sahəsində onlayn tədbirlər davam etdirilir



Məlum olduğu kimi, dünyada yayılmış koronavirus pandemiyası ilə əlaqədar ölkəmizdə, o cümlədən də muxtar respublikada tədris müvəqqəti olaraq dayandırılıb. Buna baxmayaraq, muxtar respublikanın bütün ümumtəhsil məktəblərinin sinif rəhbərləri tərəfindən mövzular dərs cədvəlinə uyğun olaraq şagirdlərə ev şəraitində çatdırılır. Həmçinin müəllimlər müxtəlif proqramlar vasitəsilə şagirdlərə gündəlik dərsləri onlayn qaydada izah edirlər. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin rəsmi internet saytında şagirdlərin ev şəraitində öz biliklərini daha da dərinləşdirmələri üçün zəruri şərait təşkil olunub. Belə ki, *tehsil.nmr.az* saytında videodərslər, vizuallaşdırılmış dərslər, elektron dərslik bölmələri üzrə keçidlər yaradılıb. Bu bölmələrdə dərslər gündəlik olaraq yenilənir.

Şagirdlərin istedadlarının üzə çıxarılması ilə bağlı nazirlik tərəfindən vaxtaşırı müxtəlif istiqamətlərdə onlayn yaradıcılıq müsabiqələri təşkil edilir. Məktəblilərin ev şəraitində asudə vaxtlarını səmərəli keçirməsi, onları müxtəlif fəaliyyətlərlə motivasiya etmək, heykəltəraşlıq üzrə istedadlarını aşkara çıxarmaq məqsədilə "Evdə qal, yaradıcılıqdan qalma!" devizi ilə "Plastik obrazlar" mövzusunda virtual heykəltəraşlıq müsabiqəsi keçirilib.

Muxtar respublika ümumtəhsil məktəblərinin şagirdləri arasında mayın 12-dək davam edəcək "Naxçıvan – mənim doğma diyarım" onlayn şeir müsabiqəsinə də start verilib. Müsabiqə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin *yaradiciliq.merkezi* "Instagram" səhifəsində virtual qaydada təşkil olunur. Mövzularla bağlı keçirilən müsabiqədə bütün yaş kateqoriyalarına aid şagirdlər iştirak edə bilər. Müsabiqədə fərqlənən şagirdlər sonda diplom və hədiyyələrlə mükafatlandırılacaqlar.

Ötən tədris ilindən başlayaraq verilmiş tapşırığa əsasən, məktəb dərsliklərinin nəşrqabağı təkmilləşdirilməsi ilə əlaqədar muxtar respublika ümumtəhsil məktəblərinin qabaqcıl müəllimləri və ali təhsil müəssisələrinin professor-müəllim heyətinin iştirakı ilə müzakirələr keçirilir. Prosesin davamı olaraq 2019-2020-ci tədris ilində müzakirələrin IX-X sinif dərsliklərinin təkmilləşdirilməsinə dair birinci mərhələsi yanvar ayında yekunlaşıb.

Yenidən nəşri nəzərdə tutulan I, V və IX sinif dərsliklərinin nəşrqabağı təkmilləşdirilməsinə dair ikinci mərhələ isə dünyada yayılmış pandemiya ilə əlaqədar olaraq nazirlik tərəfindən "Zoom" proqramı vasitəsilə onlayn qaydada həyata keçirilir. Aprelin 28-dən başlayan müzakirələrdə ardıcıl olaraq müxtəlif fənlər üzrə dərsliklər müzakirə edilib.

Müzakirələrin nəticəsi olaraq yekun rəy ümumiləşdirilərək Azərbaycan Respublikası Təhsil Nazirliyinə təqdim ediləcəkdir.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

*AMEA Naxçıvan Bölməsinin müxtəlif profilli institutlarında çalışan alim və ziyalılar hamiliyə götürülən ixtisasların tələbələrinə onlayn açıq dərslər keçirlər.*

## Onlayn açıq dərs keçilib



Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda Naxçıvan Dövlət Universitetinin hamiliyə götürülmüş Tarix-filologiya fakültəsinin Tarix ixtisası üzrə təhsil alan II kurs tələbələri üçün "Zoom" proqramı vasitəsilə növbəti açıq dərs olub.

İnstitutun Antik və orta əsrlər arxeologiyası şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Toğrul Xəlilov "Naxçıvan abidələrinin öyrənilməsi və qorunması sahəsində əldə olunan nailiyyətlər" mövzusunda məruzə ilə çıxış edib. O, qədim sivilizasiya mərkəzlərindən biri olan Naxçıvanda zəngin arxeoloji abidələrin tədqiqindən danışıb.

Tarixin canlı şahidi olan, onun daş yaddaşına çevrilən abidələrimizin öyrənilməsi və qorunmasına dövlət qayğısından danışan Toğrul Xəlilov bildirib ki, muxtar respublikamızın bütün bölgələrinə ekspedisiyalar təşkil olunub, bir çox yeni abidələr qeydə alınaraq pasportlaşdırılıb, fundamental elmi əsərlər, kitab və monoqrafiyalar işıq üzü görüb.

Sonda tələbələrin sualları cavablandırılıb.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

*Məmməd Məmmədov – 100*

# Görkəmli sənətkar, vətənpərvər ziyalı

***Tanınmış musiqiçi, bəstəkar, dirijor, xormeyster, pedaqoq, ictimai xadim Məmməd Məmmədovun adı çəkiləndə doğma diyarım Naxçıvanla, bu möhtəşəm yurdun qaynar, inkişaflı musiqi həyatı ilə bağlı bir çox unudulmaz xatirələr gözümün önündə canlanır. Məmməd Məmmədov şəxsiyyəti və onun yorulmaq bilmədən yaşadığı, yaratdığı və yaşatdığı məqsədyönlü musiqi həyatı, musiqi dünyası hər zaman olduğu kimi, yenə də heyrətləndirir məni. Təkcə məni yox, onu tanıyan hər bir kəsi.***



1950-1960-cı illərin məhsul bayramlarını yada salaq... Payız aylarında Naxçıvan şəhərində keçirilən bu möhtəşəm tədbirlərdə dirijor Məmməd Məmmədovun rəhbərliyi ilə minlərlə orta məktəb şagirdləri – birləşmiş xor onlarla populyar melodiyaları, mahnıları böyük həvəslə, məhəbbətlə ifa edərək məhsul bayramlarına rövnəq, gözəllik bəxş edirdilər.

Bu tədbirlərdə muxtar respublika zəhmətkeşləri öz nailiyyətlərini nümayiş etdirirdilərsə, Məmməd Məmmədov da musiqi həyatımızın inkişafını təqdim edirdi. Həmin gün şagirdlərlə birgə, sanki bütün şəhər oxuyurdu, sevinirdi, şənlənirdi.

Həmin illər hər tədris ilinin sonunda – may ayında orta məktəblərdə "Mahnı və çiçək" bayramı keçirilirdi. Yadımdadır, səhər-səhər hər bir şagird, müəllim evlərindən məktəbə güllər, gül dibçəkləri gətirərdi. Məktəb həyətləri gül-çiçəklə bəzənərdi. Bu bayramlarda şagirdlərdən ibarət xor kollektivi Məmməd Məmmədovun rəhbərliyi ilə Vətən, gənclik, dostluq, məktəb həyatını vəsf edən mahnılar ifa edərdi. Bu mahnıları Məmməd müəllimin rəhbəri olduğu nəfəsli orkestr müşayiət edərdi. Bu tədbirlərdə müxtəlif xalqlara məxsus musiqi əsərləri ilə yanaşı, bəstəkarın özünün də gözəl, sadə melodik dilə malik, bu gün də unudulmayan mahnıları şagirdlər tərəfindən sevilərək oxunardu. Nəinki şəhər məktəblərində, hətta kənd məktəblərində də xor kollektivləri, nəfəsli alətlər ansamblı yaradırdı Məmməd müəllim.

Məmməd müəllim yüzlərlə şagirdin birlikdə, vəhdət şəklində oxumasına necə nail olurdu?

O, orta məktəblərdə hər bir sinifdə şagirdlərlə ayrı-ayrı məşğul olar, müxtəlif siniflərdən istedadlı şagirdləri seçərək hər məktəb üzrə xor kollektivi təşkil edirdi. Bayramlarda isə şəhər üzrə orta məktəb şagirdləri həmin mahnıları birlikdə ifa edərdilər. Həmin ifalar, tədbirlər bu gün də xoş xatirələrə çevrilərək yaddaşlarda yaşamaqdadır.

Sanki gördüyü xeyirxah, nəcib işləri ilə nəfəs alırdı Məmməd müəllim. Və bu yaradıcı işləri ictimai əsaslarla, təmənnasız görürdü pedaqoq, qayğıkeş insan olan Məmməd Məmmədov. Həmin illər onun Naxçıvan Pioner və Məktəblilər Evində yaratdığı və bədii rəhbəri olduğu "Əlvan çiçəklər" Mahnı və Rəqs Ansamblı Naxçıvan musiqi tarixinin önəmli səhifəsinə çevrildi. Görkəmli bəstəkar, dirijor Əfrasiyab Bədəlbəyli bu ansamblın fəaliyyətini yüksək qiymətləndirərək onu Azərbaycan Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblının "kiçik qardaşı" adlandırmışdır. Bu da təsadüfi deyildi. Hər il Bakı şəhərində keçirilən məktəblilərin olimpiadalarında bu kollektiv birinci mükafata layiq görülürdü. Azərbaycan Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblının repertuarında olan hər bir əsər ikinci həyatını "Əlvan çiçəklər" Mahnı və Rəqs Ansamblında yaşayırdı. O əsərlər görkəmli bəstəkarlar – Cahangir Cahangirovun dördsəsli xor üçün yazdığı süitalar, Səid Rüstəmovun, Tofiq Quliyevin, Rauf Hacıyevin, Rəşid Əfəndiyevin rəqs süitaları, eyni zamanda müxtəlif xalqların rəngarəng melodiyaları idi. Hətta illər sonra "Əlvan çiçəklər"in üzvlərindən olan ifaçıların Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblında çalışmaları hər iki ansamblda olan yaradıcılıq əlaqələrinin davamı kimi qiymətləndirilirdi. "Əlvan çiçəklər" Mahnı və Rəqs Ansamblı bir çox şəhərlərdə, dövlət tədbirlərində çıxışlar edir, geniş tamaşaçı auditoriyası tərəfindən alqışlanır, şöhrətlənirdi. 1966-cı ildə ansamblın 50 nəfərdən ibarət üzvü Ümumittifaq "Artek" pioner düşərgəsində 1 ay istirahət və eyni zamanda konsert vermək hüququnu qazanaraq mükafatlandırılmışdı. Bu, böyük qələbə idi. Kollektiv sovet məkanında Azərbaycanı təmsil edirdi. Bir ayın hər bir günü kollektivin çıxışları alqışlarla qarşılanırdı. Sovet və Kanada kinorejissorları tərəfindən "Əlvan çiçəklər"ə ekran həyatı ərməğan edilir. Kollektivin hər bir üzvü fəxri fərmanlarla, medallarla doğma Naxçıvana qayıdır. Sonralar "Əlvan çiçəklər" Mahnı və Rəqs Ansamblının bir çox üzvləri respublikamızın tanınmış sənətçiləri kimi fəaliyyətlərini davam etdirdilər və bu gün də sayılıb-seçilən sənətkarlardır.

1974-1978-ci illərdə keçirilən genişmiqyaslı məktəb bədii özfəaliyyət kollektivləri müsabiqəsinin sədri olan Məmməd Məmmədovla birlikdə biz – münsiflər heyətinin üzvləri muxtar respublikanın şəhər, rayon, kənd orta məktəblərinə gedərək onların hazırlıqlarına diqqət yetirirdik, məsləhətlər verirdik. Məmməd Məmmədovun böyük təcrübəsi, musiqiyə, insanlara, doğulduğu məkana olan sonsuz sevgisi, məqsədyönlü musiqi təbliğatının nəticəsində həmin və sonrakı müsabiqələr gözəl nəticələr verirdi. Yeni-yeni ifaçılar üzə çıxırdı və hər kəs – şagirdlər, müəllimlər, valideynlər səbirsizliklə məktəb bədii özfəaliyyət kollektivlərinin televiziyada çıxışlarını gözləyirdilər. Bir sözlə, həmin tədbirlər müsabiqə çərçivəsindən çıxaraq musiqi bayramına çevrilirdi. Qeyd etmək istərdim ki, həmin illər, eyni zamanda Naxçıvan Televiziyasında da mədəniyyət evləri bədii özfəaliyyət kollektivlərinin müsabiqəsi yüksək səviyyədə keçirilirdi. Əlbəttə ki, ömrünü sənətə, doğma torpağına bağlayan və bu sənətin, bu torpağın vurğunu olan Məmməd Məmmədov kimi şəxsiyyətlərin sayəsində.



Məmməd müəllim pedaqoji texnikumda oxuduğu zaman yaradıcılıq taleyini aparıcı nəfəsli alətlərdən biri olan truba ilə bağlamışdı. O, xalq musiqi nümunələrini həvəslə öyrənir və gözəl ifa tərzi ilə tələbə yoldaşlarını heyran edir, bu aləti onlara da sevdirirdi. Bu da səbəbsiz deyildi. Çünki ona da bu aləti sevdirən, bu alətdə çalmağı öyrədən, musiqini onun həyatının ayrılmaz hissəsinə çevirən ömrünün sonunadək unutmadığı bir şəxsiyyət olmuşdu – Məmməd Kəngərli!

1938-ci ildə gənc Məmməd müəllimi Məmməd Kəngərli ilə birlikdə muxtar respublikada ilk dəfə olaraq Naxçıvan Tibb Məktəbində qızlardan ibarət nəfəsli alətlər orkestri yaradırlar. Getdikcə incəsənət Məmməd Məmmədovun mənəvi tələbatına çevrilir. Musiqiyə olan sonsuz həvəsi gənc Məmmədi Bakı şəhərinə – musiqi texnikumuna aparır. Lakin çox təəssüf ki, səhhəti üzündən Bakıda görkəmli sənətkarlardan, böyük musiqi aləmindən ayrılıb Naxçıvana qayıtmalı olur. Buna baxmayaraq, gənc Məmməd öz üzərində səylə çalışır, ifaçı kimi çıxışlar edir, nəfəsli alətlər üçün kiçik pyeslər, marşlar, xor üçün kütləvi mahnılar bəstələyir. Muxtar respublikanın mədəni həyatında fəal iştirakı onu bir bəstəkar kimi daha da şöhrətləndirir. Muxtar respublikanın rəhbərliyi gənc bəstəkara Bakı şəhərində keçiriləcək mühüm, respublika səviyyəli bir tədbirin – idman bayramının musiqisini yazmağı sifariş edir.

1940-cı ildə Bakı şəhərində keçirilən idman bayramında Naxçıvanın 350 nəfər idmançısı Məmməd Məmmədovun şən musiqi təranələri altında öz istedadlarını nümayiş etdirir. Bir il sonra müharibə başlayır. Çoxları kimi Məmməd Məmmədov da Vətəni qorumaq üçün cəbhəyə yollanır. Onun doğma qardaşı, AMEA-nın eks-prezidenti, akademik Fərəməz Maqsudovun xatirələrindən:

– Qardaşım Məmməd böyük bəstəkarlar Fikrət Əmirov, Cahangir Cahangirovla bir sinifdə oxuyurdu. Bəlkə də, onlar səviyyəsində bir bəstəkar olacaqdı. Məmmədin böyük bir bəstəkar kimi formalaşmasında ən böyük maneə müharibə oldu. Kiyev altında onların diviziyası mühasirəyə düşdü. Bir qrup döyüşçü yoldaşı ilə mühasirəni yarıb Stalinqrad cəbhəsinə – döyüşlərin ən qızğın nöqtəsinə yollandı. Müharibəni döyüşə-döyüşə başa vurdu, orden-medallara sahib oldu. Ancaq döyüşlər qurtarandan sonra bütün yaxşı işlərinə görə ondan cavab tələb etdilər; Kiyev altında əsir düşmüş bir döyüşçü yoldaşı dindirilərkən onun adını çəkmiş, bir yerdə əsir düşdüklərini demişdir. Onu çağırıb Vətənə xəyanətdə təqsirləndirmiş, millətini təhqir etmişlər. O isə millətinə ünvanlanmış təhqirə dözməyərək müstəntiqə qarşı təzyiq göstərmişdir. Beləliklə, yalnız 1954-cü ildə – Stalinin ölümündən sonra onun da günahsız yerə 9 il Həştərxan düşərgəsində yatdığı məlum oldu. Canından artıq sevdiyi ailəsini təhlükəyə düçar etməmək üçün bu 9 ildə evə məktub yazmamış, öz halından xəbər verməmişdir. Soyadını da dəyişərək Maqsudov əvəzinə Məmmədov yazdırmışdı.

Yadıma gəlir, 70-ci illərin sonunda mərkəzi televiziya tez-tez reportaj verərək, onlara məxsus çoxsəsli xor kollektivlərini təbliğ edirdi. Halbuki Məmməd müəllim bundan xeyli əvvəl – 50-60-cı illərdə 1000 nəfər uşaqdan ibarət birləşmiş xor yaradır və bu böyük kollektivi zərgər dəqiqliyi ilə idarə edirdi.

O, böyük musiqi kollektivlərinin təşkilatçısı, musiqi təbliğatçısı idi. Muxtar respublikanın indiki nəslinin musiqi zövqünün inkişafında Məmməd Məmmədovun rolu əvəzedilməzdir.

Bəstəkar Məmməd Məmmədov həm də 30-dan artıq müxtəlif janrlarda yazılmış tamaşalara musiqi bəstələmiş və bir çox əsərlərə musiqi tərtibatı vermişdir.

Bəstəkarın "Gənclik mahnısı", "Dostluq mahnısı", "Azərbaycanım", "Ana Vətən", "Olaydım mən", "Nəğmə çalır ürəyim" mahnıları Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən nəşr olunan "Naxçıvan təranələri" adlı məcmuəyə daxil edilmişdir. Nəfəsli alətlər orkestri üçün marşlar, pyeslər, fortepiano üçün "Kiçik prelüdiyalar", klarnet və fortepiano üçün "Miniatürlər", "Qaytağı", fortepiano üçün mahnı və romanslar bəstəkarın yüksək sənətkarlıqla yazdığı əsərlərdəndir. Dahi dramaturq, şair Hüseyn Cavidin cənazəsinin doğma şəhərinə – Naxçıvana gətirilməsi mərasimi Məmməd Məmmədovun fortepiano üçün yazdığı "Marş" əsərində həm böyük sevinc, həm də kədər hissləri ilə əks olunmuşdur. Həmin əsərləri "Bəstəkar Məmməd Məmmədov" adlı kitaba daxil edilmişdir.

Məmməd Məmmədovun bədii rəhbəri olduğu tədbirlər Bakı şəhərində musiqisevərlər tərəfindən dəfələrlə alqışlarla qarşılanmış, yüksək qiymətləndirilmişdir. Onun çoxsahəli yaradıcı fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Bu gün Məmməd müəllimin tələbələri, tələbələrinin şagirdləri onun adını daşıyan 1 nömrəli uşaq musiqi məktəbində görkəmli pedaqoqun – müəllimlərinin ənənələrini yaşadır, gənc musiqiçilər yetişdirirlər.

Fərəhli haldır ki, həyatını, ömrünü Naxçıvan musiqi mədəniyyətinin inkişafına həsr etmiş tanınmış sənətkarın fəaliyyəti unudulmur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov görkəmli musiqiçi, bəstəkar, dirijor, xormeyster, pedaqoq, ictimai xadim Məmməd Məmmədovun 100 illik yubileyinin keçirilməsi haqqında 2020-ci il 28 yanvarda Sərəncam imzalayıb. Onu da qeyd edək ki, bir sıra incəsənət xadimlərinin yubileylərinin keçirilməsi Naxçıvanda mədəniyyətimizə xüsusi diqqət və qayğının bariz nümunəsidir. Yəqin ki, musiqi tədqiqatçılarımızın əsərlərində Məmməd Məmmədovun həyat və yaradıcılığı bundan sonra daha əhatəli tədqiq ediləcək, bir çox görkəmli sənətkarlarımız onun əsərlərinə yenidən müraciət edəcəklər.

**Nazim Paşa QULİYEV**
***Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, bəstəkar***

## Onlayn premyera keçirilib



*Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Aleksandr Sergeyeviç Qriboyedovun eyniadlı əsəri əsasında hazırlanmış "Ağıldan bəla" tamaşasının onlayn premyerası keçirilib.*

Əsər XIX əsrin 20-ci illərində gənc nəslin mövcud ictimai-siyasi quruluşdakı eybəcərliklərə qarşı mübariz ruhda tərbiyəsində mühüm rol oynayan yüksək sənət nümunəsi olmuşdur. "Ağıldan bəla", hər şeydən əvvəl, fikirlərdə əmələ gələn bu yeniliyin təbiiliyini, qanunauyğunluğunu, həyatiliyini və gec-tez Rusiyada hər hansı bir şəkildə üsyanın baş verəcəyinin labüdlüyünü təsdiq və sübut üçün diqqəti cəlb etmişdir.

Tamaşada rolları Azərbaycan Respublikasının Əməkdar artistləri Behruz Haxverdiyev, Nazlı Hüseynquliyeva, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Günay Qurbanova, həmçinin Zakir Fətəliyev, Mirsaleh Seyidov, Nəsimi Məmmədzadə və başqaları ifa etmişlər.

Tamaşanın quruluşçu rejissoru Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, musiqi tərtibatçısı isə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Əsgərovdur.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***


## Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi

### *2020-2021-ci tədris ili üçün Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə şagird qəbulu elan edir*

Liseyə şagird qəbulu 2020-2021-ci tədris ili üzrə ümumtəhsil məktəblərinin VII sinfində təhsil alacaq oğlan şagirdləri arasında müsabiqə yolu ilə aparılır. Liseyə qəbul olmaq üçün aşağıdakı sənədlər tələb olunur:

1. *Şəxsiyyət vəsiqəsinin surəti*
2. *3x4 santimetr ölçüdə 2 ədəd fotoşəkil*
3. *Valideynin ərizəsi*
4. *Təhsil aldığı məktəbdən arayış*
5. *Sağlamlıq haqqında arayış.*

Sənədlər 6 may 2020-ci il tarixdən 29 may 2020-ci il tarixədək saat $9^{00}$-dan $18^{00}$-dək Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə qəbul ediləcəkdir.

Müsabiqə 10 iyun 2020-ci il tarixdə Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbdə saat $10^{00}$-da keçiriləcəkdir.

Şagirdlərin nəzərinə çatdırılır ki, liseyə qəbul üçün keçiriləcək müsabiqə test formatında aparılır. Müsabiqədə şagirdlərə Azərbaycan dili fənni üzrə 20, riyaziyyat fənni üzrə 25, fizika fənni üzrə 25, ingilis dili fənni üzrə 15, biologiya fənni üzrə 5, coğrafiya fənni üzrə 5, tarix fənni üzrə 5 sual olmaqla, ümumilikdə, 7 fəndən 100 sual təqdim olunacaqdır. Müsabiqədə şagirdlərə 3 saat vaxt veriləcəkdir.

Muxtar respublika üzrə ən yüksək nəticə göstərən 60 şagird liseyə qəbul olunacaqdır.

***Ünvan: Şərur şəhəri, Sabir küçəsi 26***
***Əlaqə nömrəsi: (036) 542-30-76***

**İtmişdir**

Quliyev Nail Yəhya oğlunun adına olan 0200169032 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.***

***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** ***serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Güntac Şahməmmədli**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 327**